Consult-00-AZE-aze-Nov14

**Kiçik Biznesə Yardım Heyəti**
Avropa Yenidənqurma və İnkişaf Bankı
90A, Nizami str, Landmark III AZ1010, Baku, Azerbaijan
T +994 12 497 64 72 F +994 12 497 09 62
E knowhowazerbaijan@ebrd.com  W ebrd.com/knowhow

Kiçik Bizneslər üçün Məsləhət
Konsaltinq Biznesi üzrə Silsilə Təlimlərinizi inkişaf etdirin

# Konsaltinq biznesinizi inkişaf etdirmək? *Yollarını öyrənin.*

Biznesin ehtiyaclarını öyrənməkdən başlamış keçərli təklif yazanadək təcrübənizi mənfəətli konsaltinq biznesinə başlamaq, genişləndirmək və çevirmək üçün sizə lazım olan bacarıqları öyrənin.



**European Bank**
**for Reconstruction and Development**

# Konsaltinq biznesinə başlamaqdan ən yaxşı praktiki məsləhət verənədək olan *yolları bilirik.*

Konsaltinq biznesinə başlamaqdan ən yaxşı praktiki məsləhət verənədək olan *yolları bilirik*.

Konsaltinq Biznesinizi İnkişaf Etdirin silsiləsi effektiv, təsirli konsaltinqlər üçün, eləcə də konsaltinq biznesinin uğurlu şəkildə idarə edilməsi üçün mühüm bacarıqlar, resurslar və üsulları bölüşən təlim kurslarından ibarət bir topludur. Bu kurslar konsaltinq karyerasına başlamaqdan tutmuş mənfəətli biznesin idarə edilməsinədək mövcud olan zəruri bacarıqları tədris edir və kiçik və orta ölçülü müəssisələrin əvəzini ödəməyə hazır olduğu yüksək keyfiyyətli məsləhəti çatdırmaqda sizə kömək edir.

Təcrübəniz hansı səviyyədə olursa olsun, bizim təlim kursları konsaltinq haqqında ən yaxşı tədris vəsaiti toplusu və çərçivəsi ilə təmin edir və gələcək arzularınızı gerçəkləşdirmək və uzunmüddətli konsaltinq biznesi qurmağa kömək edir. Beləliklə, istər həmin biliyin peşəkar konsultant kimi axtarışında olan ekspert olun, istərsə də konsaltinq bacarıqlarınızı artırmaq üçün yollar axtaran gənc konsultant, yeni ixtisaslar haqqında bilik əldə etməyə səy göstərən konsaltinq firmasının vəzifəli əməkdaşı, yaxud biznes modelinizi təkmilləşdirmək yolları axtaran konsaltinq biznesinin rəhbəri olun, bacarıqlarınızı daha yüksək səviyyəyə çatdırmaq üçün ehtiyacınız olan təlimi alın.



Burada altı kurs var:

- Konsaltinq biznesinə başlamaq
- Konsaltinq menecmentinin əsasları
- Konsaltinq biznesinin idarə olunması
- Konsaltinq xidmətlərinin marketinqi və satışı
- Konsaltinq üçün biznes diaqnostikası
- Konsaltinq üçün layihə idarəçiliyi.

Əlbəttə, siz bir, yaxud dörd və ya altı kurs götürə bilərsiniz, bu, sizin ehtiyaclarınızdan asılıdır. Donorlarımızın səxavətli dəstəyi sayəsində XX iştirak haqqı alırıq.
Daha ətraflı məlumat və qeydiyyatdan keçmək qaydaları üçün bizimlə telefonla, e-poçtla, yaxud www.ebrd.com/knowhow/consultant ünvanını ziyarət etməklə əlaqə saxlaya bilərsiniz



## Konsaltinqin əsasları

### Konsaltinq menecmentinin əsasları

Bu 5 günlük kurs sizə konsaltinq menecmentinin əsasları haqqında ümumi məlumat verəcək. Keçərli təklif yazmaqdan başlamış layihə idarəçiliyi sahəsində müştərilərlə və fondlarla münasibətlərin idarə edilməsinədək sənaye standartlarına uyğun yüksək keyfiyyətli məsləhət verməyin üsullarını öyrənin.

### Konsaltinq xidmətlərinin marketinqi və satışı

Bir çox kiçik və orta ölçülü müəssisələr məsləhət xidmətlərinə kənar məsləhətçinin cəlb edilməsini heç zaman nəzərə almayıb. Səsinizin eşidilməyindən başlamış keçərli təkliflər yazmağa və müştərilərlə münasibətləri idarə etməyə kimi bu 4 günlük kurs sizə konsaltınq xidmətlərinizi daha geniş və effektiv şəkildə bazara çıxarmağa kömək edəcək.

## Konsaltinq təcrübəniz

### Konsaltinq biznesinə başlamaq

Əgər sizin kiçik və orta ölçülü müəssisələrə dəyərli olacaq biznes biliyiniz, yaxud texniki təcrübəniz varsa, bu 2 günlük kurs sizə uğurlu konsaltinq biznesinə çevrilmək üsullarını öyrənməyə kömək edəcək. Biznesə başlamağın yollarından tutmuş ilk müştərilərinizin və mühüm biznes idarəçiliyi bacarıqlarınızın qazanılmasına kimi xərc çəkəcəyiniz kiçik bizneslərə məsləhət vermək yollarını öyrənin.

### Konsaltinq biznesinin idarə olunması

Konsaltinq müəssisələrinin sahibləri və menecerləri üçün olan bu 3 günlük kurs vasitəsilə biznes idarəçiliyi bacarıqlarınızı gücləndirin. Yeni müştəri qruplarına çatmaqdan başlamış istedad və resursu idarə etməyədək biznesinizi daha effektiv, daha rəqabətli və daha mənfəətli etmək yollarını öyrənin.

## Hərtərəfli konsaltinq bacarıqları

### Konsaltinq üçün biznes diaqnostikası

Düzgün diaqnostika alətlərinin seçilməsindən onların tətbiq edilməsinədək müştərinizin probleminin kökünü müəyyən etmək və həll yolları təklif etmək üsullarını öyrənin. İcra məsələsinə diqqəti yönəldərək bu 3 günlük kurs sizin analitik və məsləhətçilik bacarıqlarınızı gücləndirir, müştəriləriniz üçün həqiqətən də uyğun olan nəticələr verməkdə sizə kömək edir.

### Konsaltinq üçün layihə idarəçiliyi

Bu 4 günlük kurs sizə layihələri yüksək keyfiyyətlə və effektiv şəkildə həyata keçirmək üçün zəruri olan layihə idarəçiliyi bacarıqlarını verir. Mürəkkəb konsaltinq layihələrinin tələblərini qarşılamaq və müştəriləriniz üçün daha böyük və daha mürəkkəb layihələri həyata keçirməyə kömək etmək üçün planlaşdırılmış ideyalardan ibarət alətlər toplusu, metodologiyalar, çərçivələr və prosesləri işləyib hazırlayın.